ədalət.-2018.-6 sentyabr.-S.8.



***ZAKİR BAYRAMLI***

# QƏZƏLLƏR

Cənnət kefinə uyma, cəhənnəmdi bu dünya,
Hər insana son ucda ölüm,qəmdi bu dünya.

Ömrün qədəri iç suyunu artığa dəymə,
Zənn eyləmə əfsanəvi "zəm-zəm"di bu dünya .

Zülmü, əzabı varsa, nə mənası həyatın?
Rahmanlara yad, zalıma məhrəmdi bu dünya.

Haqqın əli çatmır ala haqsızlar əlindən,
Göylərdə uçan kürreyi-aləmdi bu dünya.

Güc əhli önündə susaraq əysə də boynun,
Gücsüzlərə qarşı daha ötkəmdi bu dünya.

Çoxdan bölünüb varlılara neməti-varı,
Çatmır kasıbın zənbilinə, kəmdi bu dünya.

Min dağ çəkilir haqqa,sağalmazdı yarası,
Haqsız və yalan dərdlərə məlhəmdi bu dünya.

Qan tökmədədir torpağına əhli siyasət,
İçdikcə qanı, ağlı çaşır, dəmdi bu dünya.

Zakir, nə qədər açsa da "şeytanlara" meydan,
İnsanlıq üçün ən gözəl əyləmdi bu dünya.

* * *

Yüz il yaşayıb yığma ögey varı Vətənsiz.
Dad verməyəcək bağlarının barı Vətənsiz .

Qürbətdə günün xoş, dadasan naz ilə nemət,
Gündən-günə rəngin olacaq sarı Vətənsiz.

Dünyanı gəzib, ən uca yerlərdə dolaşsan,
Çox tez əriyər dağlarının qarı Vətənsiz.

Yad eldə tapıb cəm eləsən başına dostlar,
Tez -tez itirərsən belə dostları Vətənsiz.

Aldanma havaya, suları şərbət olana,
Vəsf eyləmə çöllərdəki gülzarı Vətənsiz.

Kef çəkmək üçün özgə vilayətlərə uysan,
Düz olmayacaq vaxtının ilqarı Vətənsiz.

Zakir, nə qədər olsa da hər yanda gözəllər,
Gəl seçməginən sən özünə yarı Vətənsiz.

* * *

Layiq deyil ey yar əzaba, töhmətə könlüm.
Dözməz bu qədər intizara, möhnətə könlüm.

Göstər üzünü, qoyma kəsə qarşımı həsrət,
Möhtacdı yaman, sənlə şirin söhbətə könlüm.

Bənd olmuşam artıq, daha gecdir geri dönmək,
Vaxtdır ki, çata yar sarıdan hörmətə könlüm.

Gəl salma demişdim məni bu eşqi-bəlaya,
Aşiq olacaq səndəki "var-dövlətə" könlüm.

Çəkdin kamına, canıma od saldın odundan,
Sənsiz nəcə bir özgə həvəslə ötə könlüm?

Dağlandı sinəm, göynədi eşqin fərağından,
Gör halımı, yumşalda səni, kövrətə könlüm.

Zülm etmə pərəstişkarına, qaçma görüşdən,
Ol bağıma sakin ki, vüsala yetə könlüm.

Ey yar, deyəsən Zakiri çox gözlədəcəksən,
Dözsünmü ümid bəslədiyi möhlətə könlüm?

* * *

Bağa baxsan, yetişib bağ dolu barın olacaq,
Əkdiyin hər bir ağac sevgili yarın olacaq.

Dik tutub başını hər işdə güvənsən özünə,
Fəth edib zirvəni, dağ boyda vüqarın olacaq.

Ehtirasdan yaranan odlu məhəbbət diləsən,
Elə zənn etmə bu eşq daimi varın olacaq.

Bülbülə qibtə edib girmə gülün bağçasına,
Dolaşıb gül koluna, sinədə xarın olacaq.

Arzulardır aparan insanı daim irəli,
Kamına yetmək üçün güclü axarın olacaq.

Gər həyat eşqinə sadiq yaşayıb, ömr eləsən,
Bütün ömrün uzunu güllü baharın olacaq.

Zakir, aldansan əgər şöhrətə, dünya malına,
Dünyanı fani görüb, naleyi-zarın olacaq.

* * *

Sən mənim qaməti şux, sevgili cananımsan,
Qəlbimin parası, cismimdə əziz canımsan.

Çaşdırır ağlımı eşqin, dəyişir əhvalım,
Könlümün novrağı, ömrüm günü, xoş anımsan.

Bağçamın qönçə gülü, sevgimizin dastanı,
Günəşin tən yarısı, şəfəqdə al danımsan.

Bir həyat çeşməsisən, gərçi suyundan içsəm,
Sanaram cana axıb dövr eləyən qanımsan.

Boylanıb dörd tərəfə hansı cəhətdən baxsam,
Görürəm surətini, sən demə dörd yanımsan.

Gəl məhəbbət bağına qoyma nigaran yarı,
Vəslinə yetməyə can bəslədiyim kamımsan.

Zakirəm, mehmanım ol, çıxma kənar qəlbimdən,
Sən mənim varlığımı fəth edən insanımsan.

* * *

Baxdım ki, görüm yarı, kor oldu yenə baxtım.
Tənhalıq içində ötüşür boş yerə vaxtım.

Gizlətdi özün, yar yolumu daşlığa saldı,
Daşdan-daşa dəydikcə,yıxıldıqca da qalxdım.

Yəqin ki, küsüb, bilmirəm ancaq nə səbəbdən,
Susmaqmı düşüb könlünə, ya səhvmi buraxdım.

Ağlar bulud oldum, gözümün yaşını tökdüm,
Döndüm selə, leysana,yanağım boyu axdım.

Eşqin nə dözülməz halı,sönməz odu varmış,
Heç sönmədi eşqim, canımı odlara yaxdım.

Yar könlümü qan eylədi, qalxdı göyə naləm,
Ahım bürüdü göyləri, şimşək kimi çaxdım.

Ey kaş ki, gələ, söyləyə nöqsanımı yarım,
Oldu nə günahım, bu qədər vaxtı darıxdım.

Mən Zakiri bənd etməyəcək özgə gözəllər,
Onsuz nə gərək, gər ki, qızıldan ola taxtım.